

**Elvin BAYRAMOV,**
*Azərbaycan Universitetinin dissertantı*

# Beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş milli sənaye siyasətinin prioritet istiqamətləri

*Rəqabət qabiliyyətinin yüksəldilməsi problemi dünya ölkələrinin dövlət xadimləri və iş adamlarının daim diqqət mərkəzindədir. İnkişaf etmiş sənaye ölkələrində rəqabət qabiliyyətinin vəziyyətinə və onun artırılması amillərinin tədqiqi ilə məşğul olan milli institutlar, təşkilatlar, komissiyalar fəaliyyət göstərir. Bu, onunla əlaqədardır ki, rəqabət qabiliyyəti anlayışı sənayenin inkişafının strateji məqsədlərinin ÜDM-in artımı və ya əmək məhsuldarlığı göstəricilərinə nisbətən daha əhatəli ölçüsüdür.*

Məsələn, ÜDM-in artımı təbii renta hesabına da ola bilər. Başqa sözlə, milli iqtisadiyyatın rəqabət qabiliyyəti konsepsiyasının tərəfdarları hesab edirlər ki, həmin konsepsiya cari iqtisadi artıma nisbətən daha əhatəlidir və milli iqtisadiyyatın orta və uzunmüddətli dövrdə artım sürətinin təmin olunmasını xarakterizə edir. Çünki rəqabətqabiliyyəti struktur problemləri, insan kapitalı və innovasiya ilə əlaqədardır. Bu baxımdan qlobal iqtisadi rəqabətə davamlı iqtisadiyyatın formalaşdırılması, iqtisadiyyatın ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası ölkə iqtisadiyyatında köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə müşayiət olunur və rəqabət qabiliyyətli yüksək texnoloji məhsulların istehsalı sahələrinin olmasını tələb edir. Milli sənayenin daxili və xarici rəqabətqabiliyyətliliyinin yüksəldilməsi müasir mərhələdə, istər hökumət orqanlarının, istərsə də aşağı idarəetmə həlqələrinin ən mühüm vəzifələrindən biridir.

İqtisadiyyat sahəsində özünü göstərən çoxsaylı rəqabət münasibətlərini şərti olaraq üç qrupa bölmək olar: mikro – (konkret məhsul və istehsal növləri, müəssisələr); mezo – (sahələr, müəssisələrin korporativ birləşmələri və konqlomerat xarakterli firmalar); makrosəviyyə (xalq təsərrüfatı kompleksləri, ölkələr, ölkə qrupları). Dissertasiyanın mövzusuna uyğun olaraq biz mezosəviyyədə beynəlxalq rəqabətqabiliyyətinin yüksəldilməsi yollarının araşdırılması məqsədini qarşıya qoymuşuq.

Müasir mərhələdə milli sənayenin inkişafının sürətləndirilməsi onun rəqabətqabiliyyətinin yüksəldilməsindən asılıdır. Ona görə də milli sənayenin rəqabətqabiliyyətinin yüksəldilməsi dövlətin iqtisadi strategiyasının, o cümlədən sənaye siyasətinin mərkəzi xəttini təşkil etməlidir. Sənaye siyasəti – təsərrüfat subyektlərinin (müəssisə, korporasiya, sahibkarlar və s.) fəaliyyətinə, habelə həmin fəaliyyətdə istehsal amillərinin alınması, istehsalın təşkili, mal və xidmətlərin bölgüsü və satışı sahəsində bütün həyat sikllərinə (məhsullarının həyat siklləri də



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

daxil olmaqla) dövlətin təsir göstərməsi üzrə bütün hərəkətlərinin məcmusudur. Sənaye siyasətinin obyekti mal və xidmətlərin istehsalçıları, subyekti isə dövlətdir. Sənaye siyasəti müasir tipli modern dövlətin atributudur. Onun mümkün alətləri aşağıdakılardır ki, onların vasitəsi ilə dövlət konkret istehsalçılarla münasibət yaradır: mülkiyyətçi; istehsal amillərinin satıcıları; istehsal edilmiş məhsulların istehlakçıları; istehsal amilləri və son məhsul bazarlarının tənzimləyiciləri; vergi ödəmələrinin alıcıları;istehsalçıların fəaliyyətinin tənzimləyiciləri; təsərrüfat mübahisələrinin hakimləri; istehsalçıların fəaliyyətinə və yaxud onların iştirak etdikləri bazarlara beynəlxalq münasibətlər çərçivəsində təsir göstərən siyasi subyekt. Vergi ödəmələrinin alıcıları tənzimləyicilər və hakimlər vasitəsilə dövlət özünün hakimiyyət səlahiyyətlərini həyata keçirir və məcbur etmə vasitələrindən istifadə edə bilər.

Son illər ərzində Azərbaycan iqtisadiyyatı və onun əsas istehsal sahələri dayanıqlı artım dövrünə daxil olmuşdur. Belə bir şəraitdə sənaye siyasəti bu və ya digər sahələrin xilas olunmasına yönəldilmiş antiböhran aləti olmaqdan çıxarılmışdır. Bu siyasət uzunmüddətli strateji mahiyyət daşıyır.

Sənaye siyasəti ölkədə iqtisadi artım bazasının yaradılması, inkişafı və keyfiyyətcə yeniləşdirilməsi, ölkə iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiya olunan rəqabətqabiliyyətli strukturun formalaşdırılması məqsədilə ölkənin resurs potensialının iqtisadiyyatın sahələri arasında və sahələr daxilində bölgüsünə istiqamətlənmiş məqsədəuyğun və kompleks tədbirlər sistemini əhatə etməlidir. Dövlətin sənaye siyasətinin əsas predmetini rəqabət qabiliyyətli və ixrac yönümlü malların istehsalı təşkil etməlidir.

Dünya iqtisadiyyatının qloballaşması fonunda Azərbaycanın iqtisadiyyatı müxtəlif problemlərlə üzləşir. Problemlərdən əsası Azərbaycanın neft amilindən asılılığının artması, qeyri-neft sektorunun inkişafında kompleksliliyin olmaması, dünya iqtisadiyyatına kifayət qədər dərin inteqrasiya olunmaması, sənayenin ayrı-ayn sahələrinin bir-biri ilə uzlaşmış şəkildə fəaliyyət göstərməməsi, klasterləşmənin yox dərəcəsində olması, istehsal və sosial infrastrukturun inkişafdan geri qalması, müəssisələrin texnoloji cəhətdən geriliyi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə vəsaitlərin yönəldilməməsi, müəssisələrin menecment tələblərinə uyğun fəaliyyət göstərməməsindən və sairədən ibarətdir.Zaman isə tələb edir ki, sənayenin sürətli inkişafı üçün meydan açılmalı, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmadan bütün müəssisə və təşkilatlara bərabər rəqabət mühiti yaradılmalı, yerli istehsalın inkişafı üçün əlverişli şərait təmin olunmalıdır.

Dövlətin sənaye siyasəti, hər şeydən əvvəl milli sənayenin rəqabət strategiyasını özündə ehtiva etməlidir. Bu strategiya Azərbaycan sənayesinin qlobal bazar iqtisadiyyatında rəqabət mövqeyi qazanılmasına və onun gələcəkdə qorunub saxlanılmasına yönəldilməlidir. Həmin strategiya hazırlanarkən milli sənaye məhsullarının dünya bazarlarında fəal iştirakını təmin etmək üçün məşhur üç İ prinsipinə: *investisiya, innovasiya, inteqrasiyaya* - əsaslanmaq lazımdır. Həmin strategiyanın mahiyyəti dünya bazarlarında rəqabət apara bilən sahələrin üstün inkişafını təmin etməkdən ibarətdir. Elə bir şərait yaradılmalıdır ki, həmin sahələrin özləri inkişaf etsinlər və onlarla əlaqədar olan sahələrin inkişafına da təkan versinlər.

İqtisadi artım və sənayenin inkişafı infrastruktur sahələrinə - nəqliyyat, rabitə, elektroenergetika, kommunal şəbəkələrə, yol təsərrüfatına tələbatı artırır. Həmin sahələr həddən artıq kapitaltutumlu olduqları və idarəsi çox vaxt ənənəvi qaydalarla aparıldığı üçün infrastruktura milli sənayenin inkişafına müəyyən məhdudiyyətlər qoyur.

2008-ci ilə qədər dünya bazarlarında mövcud olmuş əlverişli iqtisadi konyunktura xammal qiymətlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Bunun isə həm müsbət, həm də mənfi cəhətləri vardır. Həmin amilin üstünlüyü ondan ibarətdir ki, ixracat və onunla əlaqədar sahələrin inkişafı dövlətin sərəncamına daxil olan maliyyə ehtiyatlarının artmasına səbəb olur. Bu amil ilə əlaqədar risklər isə ondan ibarətdir ki, o ixracat sektoru ilə əlaqədar olmayan sahələrin nisbi və mütləq zəifləməsinə gətirib çıxarır.Hökumətin sərəncamına böyük həcmdə maliyyə ehtiyatlarının daxil olması isə investisiya imkanlarının artmasına səbəb olmuşdur.

Azərbaycan iqtisadiyyatının beynəlxalq əmək bölgüsü sistemində səmərəli iştirakı ölkə iqtisadiyyatının əsas etibarı ilə investisiya yolu ilə istiqamətlənməsi ilə mümkündür. Bu məqsədin həyata keçirilməsi üçün təbii üstünlüyün bütün potensial imkanlarından, ilk növbədə enerjidaşıyıcıları ehtiyatlarından səmərəli istifadə edilməsi tələb olunur. Həmin təbii ehtiyatların ixracını artırmaqla əldə edilən maliyyə vəsaitlərini hələ sovet dövründə rəqabətqabiliyyətli olan sənaye məhsullarının istehsalının dirçəldilməsinə yönəldilməsi həyati əhəmiyyət kəsb edir. Bundan başqa, neftdən əldə edilən vəsaitin kimya, maşınqayırma, yeyinti sənayesinin inkişafına, xalça toxuculuğu, ipək istehsalı, sənətkarlıq məmulatlarının və s. sahədə mövcud olan qədim ənənələrin bərpasına yönəldilməsi tələb olunur. Nəzərə almaq lazımdır ki, sonuncu məmulatlara sosializm quruluşu bərqərar olana qədər xaricdə böyük tələb var idi.

Əgər biz rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalı üzrə milli strategiya hazırlamasaq ölkə iqtisadiyyatında dərin yenidənqurma işlərinin aparılmasını təmin edə bilmərik və bununla da xarici firmalarla rəqabətdə passiv obyektə çevrilə bilərik. Bu baxımdan yanaşdıqda aydın olur ki, hökumətin həyata keçirdiyi məqsədyönlü büdcə siyasəti investisiyaların, xüsusən dövlət investisiyalarının kəskin artımını gerçəkləşdirmişdir. Məhz bunun sayəsində qısa müddət ərzində cəmi investisiya qoyuluşlarının tərkibində daxili investisiyalar aparıcı mövqe qazanmış və milli sənaye rəqabətqabiliyyətinin təmin edilməsində mühüm rolu olan nəhəng infrastruktura layihələri həyata keçirilmişdir.

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və mübadilənin genişlənməsi, başqa sözlə iqtisadi qloballaşma bütün dünya ölkələrində milli iqtisadiyyatın fəaliyyətinin mühüm perspektiv əhəmiyyətə malik amildir. İnkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin əksəriyyəti himayəçilik və iqtisadiyyata hərtərəfli dövlət müdaxilələri siyasətindən qismən imtina etmişlər. Azərbaycan da qlobal iqtisadiyyat sisteminə daxil olmuşdur. Bu isə özünün aşkar üstünlükləri ilə yanaşı, ölkənin dünya iqtisadi konyunkturasından asılılığı ilə xarakterizə edilən risklər yaratmışdır. Bundan başqa, ölkə istehsalçıları nəhəng TMŞ-lərin rəqabət müba-rizəsinin hökm sürdüyü iqtisadi məkanın iştirakçılarına çevrilmişdir. Bu baxımdan rəqabətqabiliyyətli milli istehsalçıların qlob-

al təsərrüfat sistemində mövqeyinin optimallaşdırılması və milli iqtisadiyyatın səmərəliliyinin artırılması vəzifələri gündəmə gəlmişdir.

Beynəlxalq əmək bölgüsü anlayışı - kifayət qədər abstrakt anlayışdır və haqlı olaraq strateji dövlət sənədlərində həmin anlayışdan bir qayda olaraq istifadə edilmir. Problem ondan ibarətdir ki, Azərbaycan özünün emaledici sənaye məhsulları ilə dünya və regional bazarlarda zəif iştirak edir. Həmin məhsulların bir çoxu, hətta daxili bazarlarda da rəqabətədavamlı deyillər. Yerli istehsalçıların qeyri-qanuni yollar ilə tanınmış xarici firmaların marka və etiketlərindən istifadə etmələri də bunun bir göstəricisidir.

Emaledici sənayenin əmtəə və xidmətlərini (ərzaq, enerji daşıyıcıları və s. istehsalı da daxil olmaqla) yüksək xüsusi çəkisi hər hansı bir ölkənin milli sənayesinin mühüm göstəricilərindən biridir (həmin məhsulun nə qədər hissəsinin ixrac olunmasından asılı olmayaraq). Ona görə də, əgər milli istehsalçılar idxalın əvəz olunması problemini həll etsələr, Azərbaycanın dünya əmək bölgüsündə iştirakı və həmin məhsulların ölkə daxilində xarici şirkətlərlə rəqabətədavamlılığı da artar.

Bazar iqtisadiyyatının hökmran olduğu indiki şəraitdə milli sənayenin beynəlxalq rəqabətqabiliyyətinin yüksəldilməsində problemlərin bir çoxunu müəssisələrin özü tərəfindən müstəqil həll edilməlidir (özünütənzimləyən bazar mexanizmi vasitəsilə). Problemlərin mühüm hissəsi isə iqtisadi proseslərin dövlət tərəfindən tənzimləməsi yolu ilə həll edilməlidir. Dövlətin sənaye siyasəti isə səmərəli və rəqabətqabiliyyətli istehsal təşkil edilməsi üçün müəssisələrə əlverişli şərait yaradılmasına yönəldilməlidir. Rəqabətqabiliyyətli istehsalın formalaşması və inkişafı istehsalın modernləşməsi prosesləri, məhsulun standartlaşdırılması və keyfiyyəti mütəxəssis və menecerlərin peşəkarlığın, fəhlə kadrlarının professional-ixtisas tərkibi, əməyin keyfiyyəti qarşısında yeni və yüksək tələblər qoyur.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvafiq icra hakimiyyəti orqanları qarşısında sənayenin inkişaf proqramının hazırlanması vəzifəsini qoymuşdur.

Sənayenin inkişafının təmin edilməsi və rəqabətqabiliyyətinin artırılması, mövcud problemlərin aradan qaldırılması, sənaye kompleksinin inkişafının stimullaşdırılması, rəqabət mühitinin formalaşdırılması, sənaye fəaliyyəti üçün dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi,sənaye kompleksinin inkişafının stimullaşdırılması məqsədlərinə yönəldilmişdir.

Milli Məclisə 2010-cu il büdcə layihəsinin müzakirəsi zamanı hökumət tərəfindən təqdim edilmiş sənəddə qeyd edilir ki, sənayedə struktur siyasəti istehsalın texniki cəhətdən modernləşdirilməsinə, regionlararası təsərrüfat əlaqələrinin təkmilləşdirilməsinə yönəldilməlidir. Eləcə də struktur siyasəti çərçivəsində daxili bazarın tələbatını ödəyən və ixracı mümkün olan innovasiya əsaslı məhsul və texnologiyaların yaradılması təşviq edilməlidir. Qeyri-neft sektorunun inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

- milli sənayedə pozitiv struktur dəyişiklikləri, mülkiyyət hüququnun qorunması, müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi, informasiya aşkarlığı və təbii inhisar məhsullarının qiymətlərinin tənzimlənmə metod və sistemlərinin yaxşılaşdırılması üçün təşkilatı və hüquqi tədbirlər sisteminin aparılması;
- restrukturizasiya və özəlləşdirmə prosesinin

sürətləndirilməsi;

- rəqabətqabiliyyətli sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi;

- müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində beynəlxalq standartların və sertifikatlaşdırmaların tətbiqinə keçidin sürətləndirilməsi;

- azad rəqabət mühitinin inkişaf etdirilməsi və antiinhisar siyasətinin beynəlxalq standartlara uyğunlaşdırılması;

- investisiyaların stimullaşdırılması və cazibədarlığının artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi;

- xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən himayə edilməsi: yerli istehsalçıların himayə edilməsini və daxili bazarda sağlam rəqabət şəraitində inkişafını təmin edən idxal tariflərinin günün tələblərinə uyğunlaşdırılması;

- elm tutumlu istehsalın inkişaf etdirilməsi məqsədi ilə tətbiqi elmlərin, müasir şəraitdə bazar konyunkturunun tələblərinə uyğun elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi;

- elm fondunun vəsaitlərinin həmin istiqamətə yönəldilməsi.

Dövlət sənədlərində prioritet, dayanıqlı artım potensialı olan sahələrin inkişafının dövlət dəstəklənməsi tədbirləri nəzərdə tutulmuşdur. Bunlara aşağıdakılar daxildir.

- sənaye sahəsində qəbul edilən bütün proqram və konsepsiyalarda yüksək texnoloji və elm tutumlu istehsal sahələrinin inkişafına üstünlük verilməsi;
- müəssisələrin texniki-texnoloji cəhətdən yenidən qurulması, müasir idarəetmə metodlarının tətbiqi və marketinq xidmətlərinin təşkili;
- müqayisəli üstünlüyə malik olan və rəqabətədavamlı sənaye məhsullarının istehsalının genişləndirilməsi;
- idxalı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılması;
- sənaye klasterlərinin yaradılması kənar və sənayenin strukturunun seçilmiş inkişaf istiqamətlərinə uyğun olaraq yenidən qurulması;
- investisiya - innovasiya proseslərinin stimullaşdırılması, enerji və resursa qənaət edən, ekoloji təmiz texnologiyaların tətbiqinin sürətləndirilməsi;
- investisiya mənbələrinin müəyyənləşdirilməsi və səmərəliliyinin artırılması;
- sənayenin inkişaf tempinin və əmək məhsuldarlığının yüksəldilməsinin prioritetliyinin təmin edilməsi;
- dünya sənaye əmtəələri bazarının cari və gələcək konyunkturası haqqında informasiyalara malik marketinq sisteminin yaradılması.

Sənaye siyasətinin vacib hissəsi olan Xüsusi İqtisadi Zonaların yaradılması məqsədilə zəruri olan bütün işlərin görülməsi nəzərdə tutulmuşdur. Standartlaşdırma siyasəti çərçivəsində sənaye sahələrində fəaliyyət göstərən müəssisədə Beynəlxalq standartların tətbiqi təmin edilməsinə xüsusi önəm verilir.

Keyfiyyətli ali və peşə-texniki təhsil sisteminin sənayenin inkişafında önəmli rola malik olduğunu nəzərə alaraq təhsil islahatlarında ali və peşə-texniki təhsil sisteminin təkmilləşdirilməsi, istehsal sahələri və regionlar üzrə ixtisaslı kadrlara olan tələbin proqnozlaşdırılması, onun təhlili və uçotu sahəsində fəaliyyətin, gücləndirilməsi, kadrların hazırlanması üçün şəraitin yaradılması ön plana çəkilir.

Sənaye siyasəti həm də ölkədə iqtisadi artım bazasının genişləndirilməsi və keyfiyyətcə

yeniləşdirilməsi, bu sahədəki mövcud problemlərin aradan qaldırılması, ölkə sənayesinin inkişaf prioritetlərinin dəqiqləşdirilməsi, ölkənin resurs potensialının iqtisadiyyatın sahələri arasında və sahələr daxilində bölgüsünə və sənayenin inkişafına yönəldilən kompleks tədbirləri əhatə edir və onun əsas predmetini rəqabətqabiliyyətli və ixrac yönümlü malların istehsalı yolu ilə ölkə iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiyasına zəmin yaratması təşkil edir.

Göründüyü kimi sənaye siyasətinin əsas məqsədini rəqabətqabiliyyətli və ixrac yönümlü malların istehsalı təşkil edir. Bu strateji yanaşmadır. Burada üç "İ" prinsipi – investisiya, innovasiya, inteqrasiya – öz əksini tapmışdır.

Bu strateji kursun həyata keçirilməsi üçün dünya bazarlarına rəqabətqabiliyyətli məhsul çıxarmaq potensialına malik olan sənaye sahələrinin üstünlüklərindən səmərəli istifadə edilməsi və onların daha da artırılması mühüm əhəmiyyət kəsb edir. Dünya bazarlarında rəqabət apara bilən sahələrə aiddir: neft-qaz sənayesi, qeyri-neft sənayesindən – kimya sənayesi, maşınqayırma sənayesi, metallurgiya sənayesi, energetika sənayesi, tikinti materialları sənayesi, yeyinti və yüngül sənaye.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında neft-qaz kompleksinin müstəsna rolu vardır. Bu gün ölkənin neft-qaz kompleksinin qarşısında duran əsas vəzifə neft strategiyasının reallaşdırılması nəticəsində qazanılmış uğurları möhkəmləndirməkdən, iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Bu mühüm vəzifənin yerinə yetirilməsi məqsədilə "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015 -ci illər) üzrə Dövlət Proqramı" -nda qarşıdakı dövrdə bu kompleksə daxil olan sahələrin müəyyənləşdirilmiş inkişaf istiqamətləri və onların reallaşması üçün konkret tədbirlərin həyata keçi-rilməsi qarşıya qoyulmuşdur. Neft-qaz layihələrinə beynəlxalq neft şirkətlərinin, xarici investisiyaların müasir texnologiyaların cəlb edilməsinin davam etdirilməsi, dünya ölkələrinin əhəmiyyətli və etibarlı enerji ixracatçısı kimi Azərbaycana maraqlarının artırılması təmin edilməlidir.Yüksək rəqabət qabiliyyətinə malik olan həmin sahədə neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin təkmilləşdirilməsi, modernləşdirilməsi, iri regional layihələrdə daha fəal iştirak etmək məqsədilə neft-qazın nəqli üzrə infrastrukturun inkişaf etdirilməsi çox vacibdir.Bundan başqa, neft və qazın yığım-nəql proseslərinə nəzarəti optimallaşdırmaq üçün avtomatlaşdırılmış neft və qaz qovşaqlarının və kompyuterləşdirilmiş nəzarət-informasiya şəbəkəsinin təkmilləşdirilməsi və neft hasilatı sahəsində elm və texnikanın nailiyyətlərindən və qabaqcıl təcrübədən istifadənin genişləndirilməsi də mühümdür.

Sənayenin qeyri-neft sektoruna aid rəqabətqabiliyyətli alt-sahələrinin inkişafı üzrə aparılan təhlillər göstərir ki, son illərdə ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar və iqtisadi siyasət nəticəsində müəyyən nailiyyətlər əldə edilmişdir. Həmin nailiyyətləri möhkəmləndirmək üçün dünya iqtisadiyyatına inteqrasiya prosesində ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması və qeyri-neft sahələrinin daha da inkişaf etdirilməsi sənayenin inkişafının prioritet istiqaməti olmalıdır.İqtisadi İnkişaf Nazirliyinə aid saytda göstərilmişdir ki, qloballaşan dünya iqtisadiyyatının tələblərinə cavab verən, ixrac yönümlü iqtisadiyyatın qurul-

ması üçün qeyri-neft sənayesinin inkişaf etdirilməsi əsas şərtdir. Bu məqsədlə sənaye infrastrukturunun səviyyəsi qeyri-neft sənayesinin ehtiyaclarını tam ödəməli və istehsal üçün zəruri infrastruktur obyektlərinə investisiyalar bu sektorda istehsalın artım tempi və infrastruktur xidmətlərinə artan tələbat nəzərə alınmaqla həyata keçirilməlidir.

Sənaye sektorunun 2008-2011 -ci illər üçün inkişafında əsas məqsəd respublikada elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixrac yönümlü, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal edilməsi, dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, sənaye kompleksində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi tədbirlərini həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişafına nail olmaqdır. Bu məqsədlə Azərbaycanda ilk sənaye şəhərciyinin yaradılması nəzərdə tutulur.

Elektrik enerjisinə olan tələbatı tam ödəmək məqsədilə ilkin olaraq enerji itkisinə səbəb olan amilləri aradan qaldıran tədbirlər görülməli və bu məqsədlə lazımi investisiyalar həyata keçirilərək alternativ enerji mənbəyi kimi, ilk növbədə qənaət enerjisi məfhumu mənimsənilməlidir. Yuxarıda qeyd edilən tədbirlər, elektrik və istilik enerjisinin istehsalını artıran layihələr və yanacaq-energetika kompleksinin digər sahələrinin inkişafına yol açacaq tədbirlər Azərbaycan Respublikasının Yanacaq-Enerji Kompleksinin İnkişafı (2005-2015 -ci illər) üzrə Dövlət Proqramında öz əksini tapmışdır. 2008-2011 -ci illər üzrə DİP-də bu sektora aid iri layihələr bunlardır: Şirvan İES-də gücü 780 MVt olan buxar-qaz qurğusunun inşası; Səngəçalda gücü 300 MVt olan modul tipli elektrostansiyanın inşası; gücü 400 MVt olan "Şimal-2" buxar-qaz qurğusunun inşası; yüksəkgərginlikli elektrik verilişi xətlərinin tikintisi.

Ölkənin qeyri-neft sənayesi üzrə dünya bazarında rəqabətqabiliyyətli olan alt sahələrinin daha da genişləndirilməsi, müqayisəli üstünlüklərə malik olan qeyri-neft sənayesi məhsullarının istehsalının stimullaşdırılması istiqamətində dövlət dəstəyi sistemi formalaşdırılıb inkişaf etdirilməlidir. Yeni sənaye müəssisələrinin yaradılması, mövcud müəssisələrin əsaslı yenidən qurulması, xüsusən yerli təbii resurslara və kənd təsərrüfatı məhsullarına əsaslanan emal müəssisələrinin yaradılmasına xüsusi diqqət verilməlidir. Enerjidaşıyıcıları və su təchizatının yaxşılaşdırılması, yol nəqliyyatı, rabitə infrastrukturunun yüksək dərəcədə inkişafı, biznes mühitinə təsir edən digər tədbirlərin görülməsi vasitəsilə regionların təbii imkanlarından maksimum səmərəli istifadə etməklə qeyri-neft sənayesinin inkişafı hərtərəfli dəstəklənməlidir. Bunu üçün: qeyri-neft sənayesində innovasiya fəallığının yüksəldilməsi məqsədilə qanunverici bazanın və stimullaşdırıcı mexanizmlər yaradılmalı;qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə sənaye şəhərciyinin, texnoparkların, xüsusi iqtisadi zonaların yaradılması işi sürətləndirilməlidir; vergi və gömrük siyasətinin təkmilləşdirilməsi, ixracın dəstəklənməsi və daxili bazarın qorunması sistemi təkmilləşdirilməlidir.

Qeyri-neft sənayesinin inkişafında, məhsulların rəqabətqabiliyyətli və ixrac yönümlü olmasının təmin edilməsi məqsədilə zəruri standartlaşdırma və sertifikatlaşdırma işləri aparılmalı milli standartlaşdırma, sertifikatlaşdırma və akkreditasiya sistemlərində sənaye mülkiyyəti

obyektlərinin mühafizəsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilməlidir.Elmi-texniki və konstruktor işlərinin genişləndirilməsi, patent işlərinin gücləndirilməsi sənaye müəssisələrin inkişafı üçün vacib amillərdəndir. Ona görə də tətbiqi elmlə bağlı işlər sürətləndirilməli və bu işlər ilk növbədə sənaye müəssisələrində yeni məhsulların mənimsənilməsinə yönəldilməlidir.

Qeyri-neft sənayesinin tərkibində kimya sənayesi yüksək rəqabətqabiliyyəti potensialına malikdir. Kimya sənayesində məhsul istehsalının azalması, mövcud istehsal güclərindən aşağı səviyyədə istifadə olunması, avadanlıq və texnologiyaların fiziki və mənəvi cəhətdən köhnəlməsi, məhsul satışındakı problemlər və s. kimya sənayesinin texniki-iqtisadi, maliyyə və keyfiyyət göstəricilərinin azalmasına gətirib çıxarmışdır. Ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik olan kimya sənayesinin yenidən qurulması, məhsul istehsalının və keyfiyyətinin, onların emal dərinliyinin artırılması qarşıda duran vacib məsələlərdəndir.Dövlət sənədlərində aşağıdakılar sahənin perspektiv inkişafının əsas prinsipləri kimi çıxış edir [1].

- kimya sənayesinin sahə və ərazi strukturunun təkmilləşdirilməsi;
- daxili və xarici bazar üçün məhsul istehsalı həcminin artırılması, həmçinin iqtisadiyyat sahələrinin yeni növ kimyəvi məhsullar və materiallarla təmin edilməsi məqsədilə əsaslı vəsaitlərin ilk növbədə fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən silahlandırılmasına yönəldilməsi;
- maye piroliz məhsullarının və propan-propilen fraksiyasının kompleks emalı EP-300 kompleksinin gücündən tam şəkildə istifadə edilməsi və bu zaman nisbətən az enerji və su tutumlu polimer materialları istehsalatlarının inkişafına və bu bazarda yeni istehlak malları istehsal edən sexlərin təşkil edilməsinə üstünlük verilməsi;
- kimyəvi məhsulların emalının son məhsulun optimal alınma səviyyəsinə qədər dərinləşdirilməsi;
- kimyəvi xammal, material və hazır məhsulun idxalından asılılığın azaldılması və paralel olaraq MDB ölkələrinin kimya kompleksləri ilə əlaqələrin bərpası və inkişaf etdirilməsi;
- kimya sənayesi müəssisələrində enerji istehlakının azaldılması;
- ətraf mühitin qorunması və ekoloji vəziyyətin köklü şəkildə yaxşılaşdırılmasını təmin edən tədbirlərin həyata keçirilməsi, fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqların istismardan çıxarılması.

Kimya sənayesində istehsal səviyyəsinin, keyfiyyətin, kimya məhsullarının çeşidinin artırılması kimi qlobal dəyişikliklərə ehtiyac var. İlk növbədə, təkcə bu gün üçün deyil, eləcə də, uzun müddət üçün xammal bazasını müəyyənləşdirmək və bundan çıxış edərək, kimya məhsullarının buraxılış proqramını işləyib hazırlamaq lazımdır.

Kimya sektorundakı fəaliyyət göstərən müəssisələrin kompleks inkişafının təmin olunması və iri qurğuların modernləşmə problemlərinə və həmin qurğuların gücündən maksimum istifadəyə dair xüsusi proqram hazırlanması vacibdir. Bu işin təşkilinə hökumət strukturlarının iştirakı ilə iri neft və neft-kimya firmaları cəlb olunmalıdır.

Azərbaycanın milli sənayesinin iftixarı olan maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi, istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasının və rəqabətədavam-

lılığının təmin edilməsi çox vacibdir. Bu məqsədlə aşağıdakı kompleks tədbirlər həyata keçirilməlidir:maşınqayırma müəssisələrində yeni texnoloji bazaya keçilməsi;maşınqayırma müəssisələrində müasir sertifikatlaşdırma və standartlaşdırma qaydalarının tətbiq edilməsi;müəssisələrdə marketinq xidmətinin inkişaf etdirilməsi;istehsalın diversifikasiyasının təşkili genişləndirilməsi;maşınqayırma müəssisələrinin özəlləşdirilməsinin başa çatdırılması;elmi-texniki potensialdan istifadə əmsalının yüksəldilməsi.

Maşınqayırma sənayesinin qloballaşma prosesləri nəzərə alınmaqla xüsusi inkişaf strategiyasının hazırlanması vacibdir. Bu strategiyanın maşınqayırma sənayesi məhsullarının dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına yönəldilməsi günün təxirə salınmaz məsələlərindəndir. Daxili bazarı xarici inhisarın ekspansiyasından qorumaq, maşınqayırma məhsullarının ixracını dəstəkləmək, xarici texnologiyaların transferində yerli istehsalçıların maraqlarını təmin etmək, nou-hauları almaq, təcrübi-konstruktor işləmələrini birbaşa maliyyələşdirmək və onlardan istifadə hüququnu istehsalçıya vermək, müasir texnoloji durumun tələbləri səviyyəsində elmi, mühəndis-texniki və ixtisaslı fəhlə kadrları hazırlığını həyata keçirmək maşınqayırma kompleksinin inkişafında dövlət siyasətinin vacib prinsipləridir. Zəngin ehtiyatlara malik və yüksək rəqabətqabiliyyətli qara və əlvan metallurgiyanın daha da inkişaf etdirilməsi günün təxirəsalınmaz məsələsidir. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- qara metallurgiyanın müasir standartlara və bazar tələblərinə uyğun son məhsullarının istehsalının təşkili məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi;
- respublikada alüminiumdan, digər əlvan metallardan və onların qırıntılarından son məhsul istehsalının genişləndirilməsi;
- respublikada qiymətli metalların (qızıl, gümüş, platin və s.) istehsalı və istifadəsinin təkmilləşdirilməsi;
- yeni yataqların öyrənilməsi, tədqiqi, kəşfiyyatı və işlənməsi.

Yüngül sənayenin inkişafının müasir tələblərə uyğunlaşması və ilk növbədə daxili rəqabətqabiliyyətinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- respublikada yerli mövcud sənaye müəssisələrinin yenidən qurulması və fəaliyyətinin dəstəklənməsi;
- Azərbaycanda qədim ənənələrə malik olan yüngül və toxuculuq sənaye sahələrində geyim və digər geniş istehlak mallarının istehsalının gücləndirilməsi və onların keyfiyyətinin artırılması istiqamətində müasir texnologiyaya əsaslanan investisiya layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi;
- yüksək rəqabətqabiliyyətinə malik olan əl ilə toxunan xalçaların istehsalının genişləndirilməsi, bu sahədə fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin dəstəklənməsi.

Azərbaycan iqtisadiyyatının inkişafında toxuculuq sənayesinin əhəmiyyətli rolu olduğundan və dünya bazarının tələblərinə uyğun olaraq yüksək keyfiyyətli və ekoloji cəhətdən təhlükəsiz məhsul istehsalına imkan verən yeni texnologiyalar və nou-hauların cəlb edilməsi və yerli məhsulların rəqabətədavamlığının artırılması məqsədilə bu sahədə təcrübəyə malik olan xarici tərəfdaşların iştirakının dəstəklənməsi

daha da artırılmalıdır. Hazırda pambıq mahlıcının, ipək ipliyinin böyük hissəsi respublikadan kənara göndərilir. Bunu nəzərə alaraq həm də əmək resurslarının istifadəsi üçün respublikanın rayonlarında pambıq mahlıcının, ipəyin, yunun emalı və son hazır məhsula çatdırılması üzrə yeni imkanlar yaratmaq lazımdır. Bu, respublikadan mal göndərilməsində hazır məhsulun xüsusi çəkisinin artmasına imkan yaradacaqdır. Bütünlükdə respublikanın yüngül sənayesi hazır paltarın və əl ilə toxunan xalçaların buraxılışı üzrə daha az kapital tutumlu, daha çox əmək tutumlu sahələrin (tikiş və trikotaj sahələri) inkişafına yönəldilməlidir. Pambıqçılıqla məşğul olan hər bir rayonda kiçik müəssisələrin zəncirini: pambıqtəmizləmə-əyirmə-toxuma-bəzəkvurma-tikiş istehsalını və ya pambıqtəmizləmə-əyirmə-trikotaj istehsalını yaratmaq lazımdır [2].

Yeyinti məhsullarının rəqabətədavamlılığının təmin edilməsi üçün qiymətli bioloji komponentlərlə zəngin yerli xammaldan istifadə etməklə məhsulların mənimsənilməsi, keyfiyyətlə, bioloji dəyərliliyin və dad keyfiyyətinin təmin edilməsi, məhsulun qablaşdırılması üçün tara və avadanlıqlarla təminatın gücləndirilməsi, məhsulların sterilləşdirilməsi metodlarının tətbiq edilməsi, xammalın emala daxil olmasından başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılması, məhsulun saxlanması, nəqli və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı və əlavə yeyinti məhsullarının alınması tədbirləri həyata keçirilməlidir.Yeyinti sənayesinin inkişaf etdirilməsi və iqtisadi səmərəliliyin artırılması ilk növbədə emal müəssisələrinin yerləşdirilməsindən asılıdır. Səmərəli yerləşdirmə məhsulların keyfiyyətinin yüksəldilməsində və maya dəyərinin aşağı salınmasında, müəssisənin keyfiyyətli və təzə xammalla təchiz edilməsində önəmli rol oynayır. Kənd təsərrüfatının inkişafında son illərdə önəmli nailiyyətlər əldə edildiyindən bu məhsulların emalı müəssisələrin yaradılmasına geniş diqqət ayrılmalıdır. İstehsal edilən məhsulların beynəlxalq və Avropa standartlarının tələblərinə uyğunlaşdırılması nəticəsində ixracın artırılmasında önəmli yüksəliş əldə etmək olar. Rəqabətqabiliyyətli yeyinti məhsullarının istehsalının aşağıdakı prioritet istiqamətlərdən ibarət olmalıdır:

- yeyinti sənayesi müəssisələrinin modernləşdirilməsi və yenidən qurulması üçün investisiya qoyuluşlarını artırmaq və onların səmərəliliyini artırmaq;
- beynəlxalq normalara uyğun olaraq yeyinti məhsullarının daxili istehsalının inkişaf etdirilməsi üçün antidempinq siyasətinin tətbiq edilməsi;
- məhsulun qloballaşdırılması üçün tara və avadanlıqlarla təminatın yaxşılaşdırılması;
- xammalın emala daxil olmasından başlayaraq, hazır məhsulun qablaşdırılmasına qədər bütün proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- məhsulun saxlanması, nəqli və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı və əlavə yeyinti məhsullarının alınması;
- yeyinti sənayesi üçün xammal və hazır məhsulun ekoloji təmizliyinin və keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılması və müvafiq normativ-texniki aktların hazırlanması.

Antidempinq siyasəti və rəqabətin dəstəklənməsi siyasətinə bazara təsir göstərmək üçün

görülən tədbirlər prizmasından baxmaq lazımdır. Tanınmış iqtisadçı K. Morqanın fikrincə, antidempinq qaydaları rəqabət siyasətinin əsas alətidir [3]. Buna ÜTT -nin 1994-cü ildə qoyduğu qaydalar müəyyən dərəcədə imkan verir. Bu mexanizm aşağıdakı kimidir. Hədsiz dərəcədə aşağı qiymətlərlə idxalat artdıqda (bu xarici malların daxili mallarla əvəz olunmasına imkan vermirsə) hökumət müəyyən araşdırma apardıqdan sonra antidempinq rüsumu tətbiq edə bilər. Lakin bu zaman aydınlaşdırmaq lazımdır ki, idxalın hədsiz dərəcədə artması xarici firma tərəfindən rəqabət şərtlərinin pozulmasının nəticəsidir. Yoxsa istehsalın strukturunda yeni texnologiya və idarəetmə üsullarının tətbiqi ilə əlaqədar baş verən dəyişikliklə əlaqədardır. Birinci halda

*Э.Байрамов*

**Приоритетные направление национальной политики в сфере промышленности по повышению международной конкурентоспособности**

*Резюме*

Статья посвящена по вопросам формирования национальной экономики, конкурентоспособную глобальному экономическому конкуренцию, повышению конкурентоспособностью отдельных сфер экономики и в этом контексте приоритетных направлений один из составляющих экономической стратегии государство промышленной политики.

Автор определяет три группы отношений в области экономической конкуренции и исследует в мезо-уровне путей повышение международной конкурентоспособности. В статье показаны приоритеты развития современной промышленности Азербайджана и проанализированы выполнение работ по этой направлении.

*E.Bayramov*

**Priority directions of national industry policy on increasing international competitiveness**

*Summary*

The article is devoted to points of forming of national economy, competitiveness of global economical competition, increasing of competitiveness of particular fields of economy and in this context the priority directions of one of composing of economy strategy of state.

The author determines three groups of relations in field of economical competitive and research the way of increasing of international competitiveness on mezo-level. In the article it is noted priority of development of modern industry in Azerbaijan and is analyzed the activity in this direction.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasının 2010-cu il büdcə zərfi, cild II., s. 73.
2. Ə.Əhmədov, M.Hacıyev, Azərbaycan iqtisadiyyatı, 2004, s. 80.
3. С.Михневич. Поддержка конкуренции и политика антидемпинга: их взаимозависимость. – МЭМО, 2005, № 6, стр. 63-65.

♦